

**Nigar Pirimova**
*teatrşünas*

# Milli teatrda nağıllar gecəsi

**Gənclik uşaqlıq və qocalıq arasında bir körpüdür. Uşaqkən hər birimiz tez böyümək, bu körpünü tez keçmək istəyirik. Lakin illər ötdükcə, yaşlandıqca tez-tez dönüb arxaya baxırıq. Uşaqlığa - o qayğısız vaxtlara, nənələrimizin, babalarımızın danışdığı maraqlı nağıllara qayıtmaq istəyirik. O nağıllar ki, hamısı "biri var idi, biri yox idi" sözləri ilə başlayırdı.**

Bu günlərdə Akademik Milli Dram Teatrında xalq artisti Bəsti Cəfərovanın quruluşunda hazırlanan "Nağıllar aləminə səyahət" tamaşası bizi qısa müddətə də olsa, həmin maraqlı dünyaya apara bildi. Qeyd edim ki, bu tamaşa Bəsti Cəfərovanın peşəkar səhnədə rejissor kimi ilk işi idi.

Nağılların əsas süjeti saxlansa da, mətnlərə bəzi əlavələr də edilmişdi. Zənnimcə, rejissorun nağıllara etdiyi əlavə və dəyişikliklər yerində alınmış, tamaşanın daha canlı, dinamik və müasir alınmasına xidmət etmişdi. Axı, nə qədər də olmasa, bu nağılları əzbərdən bilirik, onlarla böyüdük və əgər səhnədə kitablardakı nağılların eynisini görsəydik, yəqin ki, bu, bizə o qədər maraqlı gəlməzdi.

Biri var idi, biri...

Tamaşa elə qurulmuşdu ki, göstərilən nağıllar ("Şəngülüm, Şüngülüm, Məngülüm", "Sərçənin nağılı", "Qırmızı papaq", "Qoğalın nağılı", "Turpun nağılı") bir-birinin ardınca Meşə Pərisinin (Güney Əliyeva) ifasında bir nağıl şəklində seyrçilərə danışılırdı. Hər nağıl-tamaşa qurtardıqdan sonra gənc aktyorların (Aygün Baxışlı, Nigar Məmmədova, Əlləz Əhmədov, Ülvi Həsənov, Murad İsmayılov, Adil Dəmirov, Rəşad Bəxtiyarov, Fidan Cəfərova, Günel İmanova və Rəfiqə Məmmədova) ifasında hər birimizin tanıdığı məşhur dünya rəqsləri ifa edilirdi. Bu rəqslər (Şakiranın "Waka Waka", Balkanların "Supçikin", Özbək rəqsi "Vax vaxeni", Rus rəqsi "Buronovski Bobuski", Yunan rəqsi "Hoppa hoppa", Gürcü rəqsi "Dari duri", sonda Azərbaycan rəqsləri "Xəzərim" və "Yallı") tamaşanın temp-ritminə dinamika gətirir, səhnə əsərinə rəng qatırdı. Ən maraqlısı bu idi ki, bütün bu rəqslərin quruluşunu iki aktyor - Güney Əliyeva və Ülvi Həsənov vermişdi. Rəqsləri quranların, eləcə də ifaçıların gənc olmasına baxmayaraq istər tək, istərsə də tərəf müqabili ilə ifa edilən rəqslərin kompozisiya quruluşu bir dəfə də pozulmadı.





Tamaşada nağıllar bir-birini əvəz etdiyindən cüzi geyim aksessuarlarını nəzərə almasaq (məsələn, nənəni oynayanda yaylıq, sərçəni oynayanda üst geyim və s.) geyimlər dəyişmirdi. İzlədiyim tamaşa boyu bir neçə gənc aktyor var idi ki, onların adlarını qeyd etməyə bilmərəm. Xüsusilə Aygün Baxışlının özünəməxsus oyun tərzi çox maraqlı idi. Aktrisa sakit, qayğıkeş, balalarını canavardan xilas edən ana keçi, sonradan beli bükülmüş, qulağı zəif, deyingən qarı nənəni şələquyruq, hiyləgər tülküylə elə əvəz edirdi ki, hətta bəzən tanınmaz olurdu. Onun ifasında tülküyə baxdıqda izlədiyim uşaq filmlərindəki, cizgi filmlərindəki tülkünü gördüm. Qoğalı aldadıb yediyi səhnədə işlətdiyi fənd, üz cizgiləri, mimika "Buratino" filmindəki tülkü obrazına çox oxşayırdı. Həmçinin bütün nağıllarda Canavar rolunu oynayan Ülvi Həsənov tərəf-müqabilləri işərisində dərhal seçilirdi. Onun oyun zamanı, xüsusi ilə də "Qırmızı papaq" nağılında mətndən kənar işlətdiyi sözlər elə tərzdə, elə maraqla deyilirdi ki, zalda gülüş səsləri səngimirdi. Əlləz Əhmədov ürkəcək, öz kökündən ayrılmayan dovşan, gəlin dərdiylə qəmlənən aşıq, qış yuxusundan yenicə ayılan ağır yerişli ayı obrazlarını məxsusi incəliklə yaratmışdı. Aşıq rolunda sazı elə çalıb (yalandan da olsa) oynayırdı ki, sanki neçə ilin aşığı idi. Kollektivin içərisində digərlərindən fərqlənən bu üç aktyor çox gənc olmalarına baxmayaraq, səhnə sərbəstliyi və obraza fərdi yanaşma tərzi ilə diqqət çəkməyi bacarırdı. Aygün Baxışlının özbək rəqsi və "Qurd və quzu" nağılında Əlləz Əhmədovla Ülvi Həsənovun ifa etdiyi "Ləzginka" rəqsi ritmlə bədən hərəkətlərinin dəqiq uyarlığı baxımından təqdirəlayiq idi. Xüsusilə, Ülvi Həsənovun plastikası elə qurulmuşdu ki, sanki neçə ildir gürcü rəqsləri ilə məşğul olur.

Tamaşa zamanı maraqlı anlardan biri də nağıllar arasındakı keçid məqamı idi. İnsan özünü sehirli bir yuxuda hiss edirdi. Gurultulu rəqs, səs, işıqlar... və birdən hər şey donurdu. Cingiltili musiqi sədaları altında, tüstünün arasında kuklalaşmış iştirakçılar görünürdü. Robotvari ağır hərəkətlər edən oyunçular addım-addım səhnəni tərk edib növbəti oyuna keçid alırdılar.

